AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
HÜSEYN CAVİDİN EV MUZEYİ

# *“Hüseyn Cavid əbədiyyəti”*
## *mövzusunda respublika elmi konfransının*
## **M A T E R İ A L L A R I**

**BAKI-2019**

**Emil Ağayev**
*magistrant,*
*Azərbaycan Dövlət Rəssamlıq Akademiyası*
*Sənətşünaslıq fakültəsi*

# AZƏRBAYCAN RƏNGKARLIĞI VƏ QRAFİKASINDA HÜSEYN CAVİD OBRAZI

Rəssamlarımız öz əsərlərində daima tarixi-ədəbi obrazlara mühüm yer ayırırlar. Tarixin səhifələrində zaman-zaman öz sözünü demiş şəxsiyyətləri ikonoqrafik obraz kimi yenidən tamaşaçılara təsviri sənət ustalarımız çatdırırlar. Belə obrazlardan biri də dramaturq Hüseyn Caviddir.

Azərbaycan qrafika ustaları müxtəlif texnikalarda bir-birindən maraqlı portretlər yaratmışlar. Xalq rəssamı Arif Hüseynov "Cavidin uşaqlığı" əsərində ağ-qara ştrixlərlə Cavidin yaşadığı evi canlandırmışdır. Ağacda əyləşən balaca Cavidin tamaşaçıya baxan baxışaları diqqəti cəlb edir. Arif Hüseynov işıq-kölgə, obrazlardakı milli geyimlər və məkan həlli ilə kompozisiyaya bitkinlik gətirmişdir.

Elmira Şahtaxtinskaya yaradıcılığına nəzər yetirsək, "Azərbaycan qədim mədəniyyət diyarıdır" silsiləsi mühüm yer tutur. Bu silsiləyə daxil olan plakatlardan birində mərkəzdə Hüseyn Cavid, arxa fonda isə onun əsərləri teatr səhnəsində canlandırılmışdır. Günəş və qara buludun mübarizəsi, dramaturqun yaradıcılığında mühüm yer tutan xeyir və şər mövzusudur (Bax: Elmira Şahtaxtinskaya "Hüseyn Cavid").

Oqtay Sadıqzadə yaradıcılığında Cavidə həsr edilən əsərlərin öz yeri və çəkisi var. 1984-cü ildə "İblis" pyesi və 1987-ci ildə isə "Gilan qızı" əsərinə etdiyi illüstrasiyaları kitab qrafikasının inkişafında mühüm yer tutur. 1937-ci il repressiya qurbanlarına həsr etdiyi kompozisiyada xalq rəssam məftillər arasında boğulan ziyalılarımızın arasında dramaturqun da obrazını yaratmışdır. 1997-ci il kətan üzərində, yağlı boya texnikasıyla təsvir etdiyi triptixində

Oqtay Sadıqzadə mərkəzdə tamaşaçıya baxan obraz, sağ və sol hissələrdə isə fəlsəfi fikirlərlə dumanların üzərində Cavidin əsərlərinin qəhrəmanları canlandırılmışdır (Bax: O.Sadıqzadə “Hüseyn Cavid. Triptix” (kətan, yağlı boya (1997)).

Oqtay Sadıqzadə yaradıcılığında Cavidin həyat yoldaşı Müşkinaz xanımın portretini də canlandırmışdır. 1997-ci ildə kətan üzərində yağlı boya texnikasıyla kamerni-təntənəli portretdə işıq-kölgə vasitəsilə obrazın daxili aləmini əks etdirmişdir.

Altay Hacıyevin “Yayın son günü” kompozisiyası özündə simvolik mənanı birləşdirir. 1936-cı ilin yayı təsvir edilib, Xəzər sahilində, bir-birinə qonşu bağlarda dincələn Cavid, Cavad, Müşfiq, Rəsul Rza və ailələri, onların qələm və ürək dostları hər axşam “Şeir süfrəsinə” toplaşırlar. “Rəssam bu kompozisiyada məkan həlli, sanki mərkəzdə dayanan obrazda işıq-kölgə effektini daha güclü şəkildə əks etdirmişdir. Hələ xoşbəxtdirlər, faciələr və ayrılıqlar hələ qarşıdadır. Bu onların birgə olduqları son yaydır. Sənətkar bütün bu fikirləri kompozisiyada cəmləmişdir.

Ənvər Əliyevin “Üzeyir Cavidin bağında” əsərində rəssam impressionistlərə xas olan texnika-üsuldan istifadə edərək, təbiət və insan obrazlarını bir-biri ilə əlaqələndirmişdir. Cavidin şeir söyləməsi, mimika və jestlərin, rənglərin ritmik təkrarlanması, ikonoqrafik süjetdə əsas təsvir metodlarıdır (Bax:Ənvər Əliyev “Üzeyir Cavidin bağında”).

Tağı Tağıyev, Hacağa Nəzərov və Zivərbəy Əhmədbəyov yaradıcılığında da Hüseyn Cavid obrazı mühüm yer tutur.

Ülviyyə Həmzəyeva yaradıcılığında monumental xüsusiyyətləri ilə seçilən “Cavid dünyası” və Nicat Muxtarlının zər texnikası ilə təsvir etdiyi obrazlarda dramaturqa həsr edilən mühüm tablolardandır. Ülviyyə Həmzəyevanın “Cavid dünyası” əsərində sanki mozaik daşlarından qurulmuş monumental boyakarlıq nümunəsini xatırladır. Milli ənənələrin, memarlıq və xalça ornamentlərinin əlaqəsi bütün əsərin əsas diqqət mərkəzidir.

Azərbaycan rəngkarlıq və qrafikasında Hüseyn Cavidə həsr edilən ikonoqrafik obrazlar təsviri incəsənət tariximizi zənginləşdirir.

## ƏDƏBİYYAT:

1. Sadıqzadə Oqtay. Kataloq, Bakı, Şərq-Qərb, 2013, 104 s.

## Summary

In this article images of Hussein Javid in Azerbaijani painting and graphics are treated in the context of iconographic analysis.